# RESPUBLİKA ƏHƏMİYYƏTLİ ELMİ-SAHƏVİ KİTABXANALARIN HÜQUQİ STATUSU

**MƏHƏMMƏDLI DAŞQIN HEYDƏR oğlu**
***BDU, Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının magistrantı***
dashqin.muhammedli@mail.ru

*Məqalədə respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar, onların hüquqi statusu və başlıca funksiyaları haqqında nəzəri ümumiləşdirmə verilir. Həmçinin respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların müasir informasiya cəmiyyəti şəraitində fəaliyyətinin müxtəlif aspektlərinə də toxunulur.*

***Açar sözlər:*** *Kitabxana, sənəd, kitabxana qanunvericiliyi, informasiya resursları, informasiya prosesləri, kitabxana xidməti, elmi-sahəvi kitabxana.*

Azərbaycan Respublikası XXI əsrə yüksək elmi-texniki potensiala, mədəni-mənəvi dəyərlərə, sürtlə inkişaf edən iqtisadiyyata malik demokratik və hüquqi dövlət kimi formalaşan bir ölkə kimi daxil olmuşdur.

Cəmiyyətin informasiyalaşdırılması XX əsrin sonu-XXI əsrin əvvəllərində dünyanın qlobal problemlərindən biri kimi gündəmə gəlmişdir. Artıq informasiyanın rolu praktik olaraq onun bütün fəaliyyət sahələrində-iqtisadiyyatda, elmdə, təhsildə, mədəniyyətdə, səhiyydə, siyasətdə, dövlət və regional idarəetmədə durmadan artmaqdadır.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası [1] cəmiyyətdə insan amilinin inkişafı, vətəndaşları məlumatlandırmaq, onu yaymaq və istifadə etmək, eləcə də mədəni təsisatlardan və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını təmin etmişdir. Bu isə ölkədə baş verən sosial, iqtisadi, elmi mədəni, təhsil və tərbiyə proseslərinin, cəmiyyətin bütün sferalarının informasiya təminatı problemini aktuallaşdırır.

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər arasında müxtəlif növlü və tipli, müxtəlif şəbəkələrə məxsus olan kitabxanaların sənəd-informasiya fondlarının formalaşması, təşkili xüsusiyyətləri, idarə edilməsi və xüsusən oxuculara informasiya xidmətində ənənəvi iş üsulları ilə yanaşı, müasir texnologiyaların tətbiqinə başlanılması dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir.

Azərbaycan prezidenti İlham Əliyevin 20 aprel 2007-ci ildə imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamında göstərilir ki, "Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mədəni potensialının artırılmasında kitabxanalar əvəzsiz rol oynayır" [2].

"Ümimmilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" [10, s.31].

Azərbaycanda respublika statuslu dövlət elmi-sahəvi kitabxanalar mədəniyyətin, elmin, təhsilin, tərbiyənin, informasiya fəaliyyətinin, xalq təsərrüfatının müxtəlif sahələrinin kitabxana-biblioqrafiya və informasiya təminatının səmərəli və effektiv təşkilində mühüm rol oynayan, müasir şəraitdə ölkədə informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edən, bütövlükdə Azərbaycan cəmiyyətinin intellektual və mənəvi potensialının inkişafına hərtərəfli xidmət göstərən sosial-mədəni təsisatlar kimi böyük ümummilli əhəmiyyət kəsb edirlər.

XX əsrin əvvəllərindən etibarən Azərbaycanda xalq maarifinin, elmin, mədəniyyətin inkişafında meydana gələn mütərəqqi meyllər, xüsusilə demokratik ruhlu maarifpərvər ziyalıların elmin, mədəniyyətin, təhsil və tərbiyə prosesinin çox mühüm tərkib hissəsi kimi kitabxana işinə əhəmiyyətli diqqət və qayğı göstərməsi, yeni-yeni kitabxanaların, qiraətxanaların açılmasının zəruriliyi və aktuallığı haqqında çıxışları, təklifləri məhz Azərbaycanda müxtəlif tipli və növlü kitabxanaların meydana gələrək inkişaf etdirilməsinə ciddi stimul vermişdir.

Məhz bu dövrdə Azərbaycanda genişlənən böyük maarifçilik hərəkatı və bu hərəkatın əsas təşkilatçıları olan maarifpərvər ziyalılar-H.B.Zərdabi, M.Ə.Sabir, M.Hadi, H.Cavid, N.Nərimanov, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, A.Talıbzadə (Şaiq), Ü.Hacıbəyov, H.Mahmudbəyli, R.Əfəndiyev, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Haqverdiyev və digərləri ölkədə kitabxanaların təşkili və bu prosesin genişləndirilməsini bütövlükdə mədəni-maarif fəaliyyətinin ən əhəmiyyətli və mühüm tərkib hissəsi hesab etmiş və konkret tədbirlərin görülməsi haqqında olduqca aktual təkliflərlə çıxış edirdilər [13,s.15].

1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra bu proses böyük ümumdövlət əhəmiyyəti daşıyan prioritet istiqamət kimi sürətlə genişlənmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti öz mədəniyyət və maarif siyasətində qədim tarixi kitab və kitabxanaçılıq ənənələrinə malik olan ölkədə yeni





dövrün tələblərinə və əhalinin mövcud kitabxana-biblioqrafiya və informasiya təminatı vəziyyətinə müvafiq olaraq müxtəlif növlü və tipli mədəni-maarif müəssisələrinin, kitabxanaların, qiraətxanaların, klubların təşkili prosesi üçün yüksək ümumdövlət siyasəti həyata keçirmişdir.

Azərbaycan xalqının görkəmli dövlət və siyasət adamları, mütərəqqi ruhlu elm, maarif və mədəniyyət xadimləri M.Ə.Rəsulzadə, F.Xoyski, N.Yusifbəyli, Ə.Ağayev, Ə.Topçubaşov və b. AXC-nin mədəni-maarif fəaliyyətinin sürətlə genişləndirilməsi, mədəni-maarif müəssisələrinin, xüsusilə kitabxanaların təşkili və onların işinin inkişaf etdirilməsi üçün xalqımızın mədəniyyət və maarif tarixində çox böyük yer tutan ümumdövlət siyasəti həyata keçirmiş, məhz bu dövrdən etibarən ölkədə ümumdövlət miqyası kəsb edən, xalq təsərrüfatının müxtəlif sahələrində çalışan mütəxəssislərin kompleks informasiya təminatının təşkilini həyata keçirən sahəvi kitabxanalar şəbəkəsinin yaraılması üçün ilkin addımlar atılmışdır.

Lakin 1920-ci il aprelin 28-də AXC Sovet Rusiyasının XI Qırmızı Ordusu tərəfindən devrildikdən sonra onun bütün sahələrdə olduğu kimi, xalq maarifi və mədəniyyətin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər də yarımçıq qaldı. Ölkədə sovet hakimiyyətinin bərqərar olması ilə bütün sahələrin sosialistcəsinə təşkili, kommunist ideologiyasının əsas nəzəri və ideoloji müddəaları əsasında yenidən qurulması prosesinə başlanıldı [3, s.49].

Sovet hökumətinin Azərbaycanda xalq maarifi və mədəniyyətinin genişləndirilməsi, müxtəlif mədəni-maarif müəssisələrinin, xüsusilə kitabxanaların təşkili istiqamətində atdığı addımlar 20-ci illərin əvvəllərindən etibarən geniş vüsət aldı. Müxtəlif növlü və tipli kitabxanalar şəbəkəsi meydana gəldi. Xüsusilə xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması prosesində xalq təsərrüfatının müxtəlif istiqamətlərinin konkret sahələr üzrə informasiya təminatının təmin edilməsi zərurəti gündəmə gəldi. Beləliklə, 1920-ci ilin ortalarında respublikada iki böyük, əsasən mərkəzi metodik və elmi xarakter daşıyan kitabxana - Mərkəzi-Texniki və Mərkəzi Kənd Təsərrüfatı kitabxanaları təşkil edildi [9, s.98]. Bu kitabxanaların təşkil edilməsi Azərbaycanın mədəni-elmi həyatında olduqca mühüm hadisə olmaqla yanaşı, xalq təsərrüfatının ən mühüm sahələrindən olan texniki istehsal və kənd təsərrüfatı mütəxəssislərinin, bu sahədə təhsil alan tələbələrin, eləcə də müəllimlərin, alimlərin sahəvi elmi-informasiya təminatının təşkilində olduqca mühüm hadisə idi.

40-cı illərin əvvəllərində ölkədə tibb sahəsinin elmi-informasiya fəaliyyətinin yaxşılaşdırılması və bu işin optimal təşkili üçün olduqca böyük əhəmiyyət daşıyan yeni bir elm və mədəniyyət müəssisəsini - Respublika Tibb Kitabxanasının açılması [11, s.31] məhz ölkədə müvafiq sahə üzrə mütəxəssislərin, müəllimlərin, tələbələrin, alimlərin və s. informasiya

tələbatçısı qruplarının operativ informasiya təminatı üçün böyük əməli hadisə kimi qiymətləndirilir.

Sonrakı illərdə bu kitabxanaların fəaliyyəti daha da genişləndirilmiş, funksiyaları artırılmış, öz işlərində metodik və elmi səviyyənin yüksəldilməsi üçün ümumdövlət əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 80-ci illərin əvvəllərində respublikanın çoxminli pedaqoji kollektivinin sahəvi elmi-informasiya təminatının optimallaşdırılması və effektiv təşkili üçün yeni bir respublika əhəmiyyətli elmi-sahəvi kitabxananın - Respublika Elmi-Pedaqoji Kitabxanasının açılışı olmuşdur [6, s.89]. Bu kitabxananın açılması ölkədə pedaqoji sistemin informasiya təminatı sahəsində dövlətin atdığı ən ciddi addımlardan biri kimi qiymətləndirilmiş və çoxminli pedaqoji kolektivin böyük sevincinə və razılığına səbəb olmuşdur.

Göründüyü kimi, ölkədə ayrı-ayrı sahələrin konkret elmi-informasiya təminatının təşkili və bu işin effektivliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər bilavasitə yüksək ümumdövlət miqyaslı və statuslu elmi-sahəvi kitabxanaların təşkili və onların işinin inkişaf etdirilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Respublikası 1991-ci ilin oktyarbrında öz dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyin ilk illərində ölkə rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində baş verən xaos, anarxiya, getdikcə güclənən vətəndaş müharibəsi təhlükəsi, torpaqlarımızın bədnam Ermənistan tərəfindən ardınca işğal edilməsi heç şübhəsiz ki, ölkənin bütün sosial-iqtisadi və mədəni həyatına ciddi zərbə vurmuş, bütün digər sahələrdə olduğu kimi, mədəni-maarif və kitabxana işi də iflic vəziyyətə düşmüş, mədəni infrastrukturun bütün komponentləri məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Lakin belə bir vəziyyətdə hakimiyyətə xalqımızın ümummilli lideri, dünyanın görkəmli dövlət və siyasət xadimi, milli müstəqilliyimizin və dövlətçiliyimizin xilaskarı, ulu öndər Heydər Əlirza oğlu Əliyev gəldi. Onun hakimiyyətə gəlişi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas oldu, ölkədə sosial-iqtisadi və mədəni infrastruktur yüksək inkişaf yoluna qədəm qoydu. Məhz ulu öndər tərəfindən həyata keçirilən qlobal tədbirlər, verilən sərəncam və fərmanlar, qəbul edilən qanun, qərar və dövlət proqramları bütün sahələrdə olduğu kimi, bütövlükdə mədəni-maarif fəaliyyətinin, xüsusilə kitabxana işinin kompleks inkişafı və tərəqqisinin həm elmi, həm də hüquqi baxımdan ciddi şəkildə əsaslandırılmasına böyük töhfələr verdi.

Ulu öndərin bilavasitə diqqəti və nəzarəti ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların ölkənin mədəni təsisatlarından, mədəni sərvətlərindən sərbəst və azad surətdə istifadə etmək hüququnun, eləcə də dövlətin ölkə əhalisinin azad və sərbəst informasiya təminatının təşkilinə bilavasitə diqqət və qayğı göstərməsi kimi mühüm





müddəaların təsbit edilməsi müvafiq istiqamətdə atılmış ən qlobal ümumdövlət addımlarından biri kimi qiymətləndirilir [5, s.81].

Ulu öndərin bilavasitə diqqət və qayğısı ilə qəbul edilmiş "Mədəniyyət haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunları Azərbaycan xalqının mədəni-elmi və sosial həyatı üçün olduqca böyük əhəmiyyət kəsb edən milli-demokratik mahiyyətli hüquqi-elmi sənədlərdir [3,4,8].

Ulu öndər Heydər Əliyev tərəfindən 12 mart 1992-ci ildə imzalanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda [3] müasir şəraitdə kitabxanaların mürəkkəb sosial, mədəni və informasiya sistemi kimi cəmiyyətin inkişafında rolu və vəzifələri müəyyənləşdirilmiş, respublikamızın mədəniyyət tarixində ilk dəfə olaraq onların elmi tərifi verilmiş, statusu müəyyənləşdirilmişdir.

Qanunda deyilir: "Bu qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir" [3, s.4].

Qanunun 8-ci maddəsi "Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar" adlanır. Burada deyilir: "Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya mərkəzləridir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün informasiya, kitabxanalararası abonement və metodik mərkəz funksiyasını yerinə yetirir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların fəaliyyəti bu Qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının və onun filiallarının, Bakı Dövlət Universiteti kitabxanasının işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların statusu müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir" [3, s.10].

Göründüyü kimi, Qanunun 8-ci maddəsi respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara həsr edilmişdir. Bununla da indiyə qədər bir çox hallarda mübahisə doğuran bu məsələnin dəqiqləşdirilməsi, respublika əhəmiyyətli

kitabxana statusu verilən kitabxanaların vəzifələrinin müəyyənləşdirilməsi bu boşluğu doldurmuş, onların fəaliyyəti üçün şərait yaratmışdır.

Beləliklə, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi-Tibb Kitabxanası, Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası və Respublika Elmi-Pedaqoji Kitabxanasına respublika əhəmiyyətli elmi-sahəvi kitabxana statusu verilmiş, əsas hüquq, vəzifə və funksiyaları müəyyənləşdirilmişdir.

Azərbaycan hökuməti məhz ölkədə bilavasitə müxtəlif sahələr üzrə ixtisaslaşmış kitabxana-biblioqrafiya və informasiya xidmətinin effektiv təşkilində mühüm rol oynayan respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların kompleks fəaliyyətinin hüquqi-normativ təşkilinin daha da gücləndirilməsi istiqamətində olduqca mühüm əhəmiyyət kəsb edən yeni bir qərara imza atdı. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabneti 2000-ci il 6 mart tarixli qərarı ilə "Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanalarının nümunəvi Əsasnaməsi"ni təsdiq etdi [12, s.19].

Bu əsasnamənin nümunəvi adlandırılması o deməkdir ki, hər bir respublika statusuna malik olan elmi-sahəvi kitabxana öz fəaliyyətinin spesifik xüsusiyyətinə müvafiq bu əsasnamənin ümumi ruhunu və prinsipial müddəalarını saxlamaq şərtilə ona müəyyən əlavə və dəyişikliklər edə bilər.

"Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanalarının nümunəvi Əsasnaməsi" aşağıdakı bplmələrdən ibarətdir:

1. Ümumi müddəalar;
2. Vəzifələri;
3. Hüquqları;
4. İşin təşkili;
5. İdarəetmə;
6. Elmi metodik şura;
7. Strukturu və maliyyələşdirilməsi [12, s.33].

Birinci bölmədə Respublika elmi-sahəvi kitabxanasının statusu aşağıdakı kimi müəyyənləşdirilir: Kitabxana oxucu qruplarına və elm sahəsinə görə ixtisaslaşdırılan, milli, xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana, biblioqrafiya və informasiya müəssisəsidir, öz profili üzrə kitabxanalararası abonement və və metodik funksiyasını həyata keçirir.

Əsasnamənin II bölməsində Respublika Elmi-Sahəvi Kitabxanansının mühüm vəzifələri müəyyənləşdirilir. Burada kitabxananın xidmət sahəsindəki fəaliyyətinin istiqamətləri göstərilir və bu işdə müasir informasiya texnologiyalarından istifadə edilməsi ilə əlaqədar vəzifələr xüsusi olaraq vurğulanır. Həmin vəzifələr aşağıdakılardan ibarətdir:

- Oxuculara məlumat-bibliqrafiya xidməti işinin təşkilində kompüter texnologiyası tətbiq edir;





- Daxil olduğu sistemin kitabxanalarının fəaliyyətini istiqamətləndirmək məqsədilə məlumat bankları hazırlanması işində iştirak edir;
- İnternet sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları, informasiya müəssisələri arasında məlumat-biblioqrafiya və kitabxana işini əlaqələndirir.

Əsasnamənin III bölməsi Respublika Elmi-Sahəvi Kitabxanasının hüquqlarını əhatə edir. Qeyd etmək lazımdır ki, burada Elmi-Sahəvi Kitabxananın hüquq dairəsi xeyli genişləndirilmiş, onun fəaliyyətinin səmərəli təşkili üçün əsaslı hüquqi baza yaradılmışdır. Əsasnaməyə görə, respublika miqyaslı Elmi-Sahəvi Kitabxana:

- Müvafiq icra hakimiyyəti sistemindəki kitabxanaların fəaliyyətini öyrənir, metodik köməklik göstərir, təkilf və tövsiyələr verir, müəyyənləşdirilmiş qaydada onların işi haqqında illik hesabat və başqa məlumatlar alır;
- Kitabxanaların fəaliyyətini gücləndirmək məqsədilə onların strukturlarında dəyişikliklər haqqında təkliflər verir;
- Kitabxana şəbəkəsi işçilərinin attestasiyadan keçirilməsi işində iştirak edir, onların maddi və mənəvi cəhətdən həvəsləndirmə, mükafat və fərqlənmə nişanlarına təqdim olunması üçün təkliflər verir;
- Bazası əsasında yenidənhazırlama və ixtisasartırma kursları təşkil edir;
- Başqa sistem kitabxanaları, idarə və təşkilatları ilə müəyyənləşdirilmiş qaydada yazışmalar aparır;
- Müvafiq icra hakimiyyətinin tapşırığı ilə beynəlxalq miqyaslı tədbirlərdə kitabxana-biblioqrafiya məsələləri üzrə şəbəkəni təmsil edir;
- Kitabxana istifadəyə yararsız hala düşmüş kitabları müəyyən olunmuş qaydada fonddan çıxarır;
- Fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini kitabxana qanunvericiliyində müəyyən edilmiş qaydada tələb edir.

Əsasnamənin V bölməsində Respublika Elmi-Sahəvi Kitabxanasının idarəetmə prinsipləri və direktorunun səlahiyyətləri müəyyənləşdirilir. Əsasnaməyə görə, direktor kitabxananı müvafiq dövlət orqanları və ictimai təşkilatlarda təmsil edir; kitabxana üzrə əmrlər verir; işçiləri qəbul edir və işdən azad edir; onlara həvəsləndirmə və intizam məsuliyyəti tətbiq edir. Daha sonra Əsasnamədə qeyd edilir ki, direktor və onun müavinləri müvafiq icra hakimiyyəti oraqanı tərəfindən təyin edilir və azad olunurlar.

Respublika Elmi-Sahəvi Kitabxanasının fəaliyyətinin demokratik prinsiplər əsasında təşkili üçün Əsasnamədə məşvərətçi orqan hüququnda elmi-metodik şuranın yaradılması da nəzərdə tutulmuşdur.

Əsasnamənin VI bölməsində bu şuranın yaradılması, strukturu və tərkibi prinsipləri açıqlanır. Burada kitabxananın maliyyələşdirilməsi və maddi-texniki təchizatı ilə əlaqədar aşağıdakı hüquqi norma xüsusi əhəmiyyət kəsb edir:

"Kitabxana müvafiq icra hakimiyyətinin büdcəsi hesabına maliyyələşdirilir".

Kitabxananın fondunu yeni nəşrlərlə komplektləşdirmək, beynəlxalq və respublikadaxili kitab mübadiləsini həyata keçirmək məqsədilə mübadilə fondu üçün kitab alınması məqsədilə büdcədən əlavə vəsait nəzərdə tutulur.

Kitab fondunun komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilir və bu vəsait müntəzəm olaraq artırılır. Ayrılmış vəsait kitabxananın fəaliyyətini həyata keçirmək üçün istifadə edilir.

Qəbu edilmiş normativlərə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı kitabxananı bina, surətçıxarma və çoxaltma texnikası, kompüter, nəşriyyat və cildləmə avadanlıqları ilə təmin edir". [9, s.233]

Göründüyü kimi, Azərbaycan hökumətinin təsdiq etdiyi bu əsasnamədə respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların kompleks fəaliyyətini tənzimləyən bütün hüquqi müddəalar geniş şəkildə öz əksini tapmışdır.

Beləliklə, xalqımızın elm və mədəniyyət tarixində əvəzsiz yer tutan, uzunmüddətli effektiv kitabxana təcrübəsinə malik olan bu elm və mədəniyyət mərkəzlərinin işi və ümumdövlət əhəmiyyəti Azərbaycan dövləti tərəfindən ciddi qiymətləndirilmişdir. Bu, həm də müvafiq sahə mütəxəssislərinin üzərinə bu kitabxanaların tarixi, keçdiyi inkişaf yolu, sənəd-informasiya resurslarının kompleks təhlili, xidmət aspektləri və xüsusiyyətləri, müasir informasiya cəmiyyəti şəraitində ölkənin informasiya sistemində yeri və rolu, cəmiyyətin informasiyalaşdırılması prosesində başlıca vəzifə və funksiya haqqında kompleks tədqiqat işlərinin, elmi araşdırmaların aparılmasını, müasir vəziyyətinin təhlil edilməsini, mövcud çatışmazlıqların ortaya qoyularaq onların aradan qaldırılması yollarının və bu istiqamətdə təklif və tövsiyələrin ortaya qoyulması və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi kimi olduqca qlobal vəzifələr qoymuşdur.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasının Konstitusiyası (son dəyişiklik və əlavələrlə).B., 2004.-47s.*

*2."Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan-2007.-21 aprel.*

*3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu.- B., 2005.24s.*





*4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın muhafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu// Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 1998.- №6.-1214-1222*

*5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.-1998.-7 mart.*

*6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik:(III hissədə) h.3.:(XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi).-B.: BUN, 2010.-432 s*

*7. Xələfov A.A. "İnformasiya cəmiyyəti və kitabxanaların vəzifələri" movzusunda ümumrespublika elmi-praktiki seminar // Kitabxanaşunaslıq və biblioqrafiya.-B., 2005.-№5.-s. 8-17*

*8. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Elmi əsərlər: Bakı Universiteti xəbərləri : humanitar elmlər seriyası.- Bakı., 2004.- №.-s16-32.*

*9. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri : (mulahizələr, tərtiblər və proqnozlar).-B., 2006.-106s.*

*10. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların komputerləşdirilməsinin əsasları: dərslik.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007.-200s*

*11. İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminatı sisteminin inkişafı tarixi.- B.: Bakı Universiteti nəşriyyatı, 2000.- 415s*

*12. İsmayılov X.İ. Kitabxana və informasiya texnologiyaları: Dərs vəsaiti.-B.: Nurlan Nəşriyyatı Poliqrafiya Mərkəzi, 2009.- 312s.*

*13. İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti.-B.: BUN, 2005.-199 s.*

*14. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərs vəsaiti.-B.: "NURLAR",2010.-328s.*

# ПРАВОВОЙ СТАТУС НАУЧНЫХ И ОТРАСЛЕВЫХ БИБЛИОТЕК РЕСПУБЛИКАНСКОГО ЗНАЧЕНИЯ

**МАГОМЕДЛИ Д.Г.**

***РЕЗЮМЕ***

*В статье дается теоретическое обобщение республиканских научно-отраслевых библиотек, их правового статуса и основных функций. Кроме того, в данной статье рассматриваются различные*

*аспекты деятельности республиканского значения научных и отраслевых библиотек на современной ситуации информационного общества.*

***Ключевые слова:*** *библиотека, документ, библиотека законодательства, в общегосударственном масштабе библиотека, информационные ресурсы, информационные процессы, библиотечный сервис, научные и отраслевые библиотеки.*

## THE LEGAL STATUS OF REPUBLICAN IMPORTANCE SCIENTIFIC-SECTORAL LIBRARIES

**MAHAMMADLI D.H.**

*SUMMARY*

*The article is given theoretical generalization about republican scientific-sectoral libraries, their legal status and main functions. Also,this article deals about various aspects of the activity of Respublican importance scientific and sectoral libraries on modern information society situation.*

***Key words:*** *library, document, library legislation, nation-wide scale library, information resources, information processes, library service, scientific and sectoral library.*